Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 13 (1861) 22 yanvar 2019-cu il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Burulğanlı tariximiz

**XX əsrin əvvəllərində dünyada baş vermiş böyük tarixi hadisələr - Birinci Dünya müharibəsinin 1914-1918-ci illər, Rusiya imperiyasındakı 1917-ci ilin fevral inqilabı və oktyabr çevrilişi nəticəsində dünyanın ictimai-iqtisadi və siyasi sistemində aşkara çıxmış parçalanmalar çox böyük təlatümlərə gətirib çıxarmışdı. Bu təlatümlərin böyük bir hissəsi Rusiya tarixi ilə sıx bağlı hadisələrdi. Rusiya imperiyasında baş verən 1917-ci ilin inqilabi hadisələrin nəticəsi olaraq dünyada yeni bir tarixi mərhələnin başlandığını görmək mümkündür.**

Rusiya imperiyasının istər mərkəzi şəhərlərində, istərsə də ucqarlarında baş vermiş çaxnaşmaların nə kimi fəsadlar - müsbət, yoxsa mənfi fəsadlar törədəcəyi bəlli olmasa da - hər halda siyasi fəallıqlara səbəb olmuşdur. Birinci Dünya müharibəsinin gətirdiyi aclıq və səfalətlər, eləcə də çarizmin uzun illər boyu yürütdüyü milli ayrı-seçkilik siyasətindən cana doymuş müxtəlif millətlər azad olmaq arzusuyla mübarizəyə başlamışdılar. Rusiya imperiyasının əsarəti altında olan müxtəlif xalqlar, o cümlədən Azərbaycan xalqı bu dövrdə çox böyük və çətin tarixi hadisələrlə üzləşməli olmuşdur. 1917-ci il fevralın 27-də baş vermiş hakimiyyət çevrilişi nəticəsində Rusiya imperiyasında hakimiyyətsizliyin baş verməməsi və Birinci Dünya müharibəsinin qələbəyədək davam etdirilməsi üçün Petroqradda müvəqqəti dövlət qurulmuşdu. Bununla bərabər müharibə və fevral inqilabının yaratdığı problemlərin həddindən artıq çoxluğu müvəqqəti hökumətə Qafqazın idarə olunmasına xüsusi vaxt ayırmasına imkan vermirdi. Ona görə də II Nikolay hakimiyyətindən salındıqdan sonra imperiyanın ucqarlarında yerli idarəetmə orqanlarının yaradılması zərurəti ortaya çıxmışdır. Zaqafqaziyada belə bir hakimiyyət forması xüsusi Cənubi Qafqaz Komitəsi (qısaldılmış foması XCQK Sovet hakimiyyəti dövründə bu orqan xüsusi Zaqafqaziya Komitəsi kimi yazılırdı) olmuşdur. XCQK-nın Zaqafqaziya əhalisinə birinci müraciətində (müraciəti xüsusi Zaqafqaziya Komitəsinin sədri B.Xarlamov, üzləri M.Papacanov, M.Cəfərov, A.Çxengeli və K.Abaşidze imzalamışdı) deyilirdi: "Əsrlərcə Rusiyanın bütün əhalisini əzən köhnə; dəhşətli rejim yıxıldı. Vilayətlərdə mülki idarətmə orqanları yaratmaq üçün Dövlət Duması və müvəqqəti hökumət tərəfindən 1917-ci il martın 9-də xüsusi Zaqafqaziya Komitəsi yaradıldı".

Yeni yaradılan XCQK zəif iqtisadi-siyasi və hərbi gücə malik olmasına baxmayaraq, həm də fevral inqilabından sonra yaranan və hakimiyyətin bir neçə funksiyasını yerinə yetirməyə cəhd göstərən müxtəlif inqilabi təşkilatlarla rəqabət aparmalı idi. Belə təşkilatların sırasına Tiflis və Bakıdakı fəhlə və əsgər deputatları Sovetini, İctimai Təşkilatların İcariyyə komitəsini, Siyasi partiyaları, Milli Şuraları və sair aid etmək olar.

Sosialist inqlabçılar Cənubi Qafqazda milli məsələdən danışarkən yalnız sosialist partiyaların simasında millətlərin demokratik nümayəndələriylə taktiki saziş bağlamaların mümkünlüyünü iddia edir və "panislamçı düşmən" obrazının yaradılmasında xüsusi rol oynayırdılar. Vaxtilə Çar hökuməti öz müstəmləkəçilik siyasətini həyata keçirərək xalqlar arasında milli ədavəti qızışdırır, milli ucqarların ruslaşdırılması siyasətini yeridirdi. Həmin siyasəti davam etdirən müvəqqəti hökumət Azərbaycan xalqına, eyni zamanda Cənubi Qafqazın başqa xalqlarına, demək olar ki, heç bir siyasi hüquq verməmişdi. Hakimiyyət müvəqqəti hökumətin əlinə keçdikdən sonra da çar mütləqiyyətinin milli zülm, müstəmləkəçilik və müharibə siyasəti davam etdirilirdi, Lakin bununla yanaşı, inqilab imperiyanın ucqarlarında əzilən millət özlərinin siyasi hüquqlarından istifadə etmək, o cümlədən söz, yığıncaq, nümayiş, ictimai-siyasi proseslərdə iştirak etmək azadlığına geniş imkanlar yaratmışdır.

Bu dövrdə ölkənin müsəlman əhalisinin siyasi fəallığını əlaqələndirən mərkəz Dövlət Dumasının müsəlman fraksiyası idi. Bu fraksiyanın təşəbbüsüylə 1917-ci il martın 20-də Petroqrad müsəlmanlarının mitinqi təşkil edilmiş və bu mitinqə Bakı, Yelizavetpol və İrəvan quberniasından deputat seçilmiş M.Y.Cəfərov rəhbərlik etmişdir.

Azərbaycanın qabaqcıl ziyalıları həmişə xalqın taleyini düşünür və belə hesab edirlər ki, 1917-ci il fevral inqilabından sonra Rusiyada qurulacaq federativ və demokratik hökumət Cənubi Qafqazda yaşayan xalqlara öz müqəddəratlarını azad surətdə həll etmək üçün təminat verəcək, milli ədavətin qızışdırılmasına imkan verməyəcək, milli ayrı-seçkiliyə son qoyacaqdı. Hətta müsəlman fraksiyasının sədri B.Xoyski Bakıda fəaliyyət göstərən müsəlman ictimai təşkilatlarının adından Rodzyankonun ünvanına göndərdiyi teleqramda bundan sonra Rusiyanın bütün vətəndaşlarına, o cümlədən müsəlmanla da mülki, siyasi, milli və dini azadlıqların və bərabərliyin veriləcəyinə əminlik bildirmişdi.

1917-ci ilin fevral inqilabından sonra Azərbaycanın hər yerində, xüsusilə Bakıda siyasi vəziyyət gərgin olaraq qalırdı. Bu gərginliyi hər şeydən əvvəl Birinci Dünya müharibəsinin Batum-Urmiya cəbhə xəttinin Cənubi Qafqazdan keçməsi, Rusiya imperiyasında hakimiyyət böhranı, bolşeviklərin sinfi mübarizəyə və müharibə əleyhinə çağırışları, eləcə də Bakıda mövcud olan partiyaların kütlələri öz tərəfinə çəkmək uğrunda bir-biriləriylə apardıqları gərgin mübarizələri (müsavat, menşevik, eser, daşnaqsütyun və bolşeviklər partiyası nəzərdə tutulur) daha da artırırdı. Digər tərəfdən bolşeviklərin sıralarında ermənilərin çoxluğu və onların türklərə qarşı düşmənçiliyi, eləcə də Türkiyə və Azərbaycan torpaq istəyi bolşeviklərin isə imperiya ərazisini bərpa etmə siyasəti, nəinki Bakıda, habelə regionda vəziyyəti gərginləşdirən əsas amillərdən hesab olunurdu. Vəziyyəti gərginləşdirən başqa bir amil isə Bakıda iqtisadi çətinliklərin getdikcə artması idi. Nəhayət, bu bölgədə vəziyyəti gərgnləşdirən daha bir mühüm amil Xəzər bölgəsi, xüsusilə burada çox mühüm hərbi-strateji mövqedə yerləşən Azərbaycan dünyanın aparıcı dövlətlərinin başlıca rəqabət hədəfinə çevrilməsi idi.



**Həmin dövrdə istər Bakıda, istərsə də əyalətlərdə Azərbaycan xalqının mənafeyini düşünən və müxtəlif sosial təbəqəni əhatə edən təşkilatlar da yaranmışdı. Fevral inqilabının elə birinci günü Azərbaycan müsəlman hərəkatının yaradılmasının mərkəzlərindən birinə çevrilmişdir. İnqilabdan sonra Azərbaycanın siyasi xadimləri və qabaqcıl ziyalılarının qarşısında duran vacib məsələlərdən biri yalnız Cənubi Qafqazda deyil, bütün Rusiya müsəlmanlarının dağınıq halda olan qüvvələrinin vahid bir mərkəzdə birləşdirilməsi idi. Bununla bağlı "Açıq söz" qəzeti yazırdı ki, artıq bizə də birləşmə zamanı gəlib çatmışdı.**

**(ardı gələn sayımızda)**

***Əbülfət Mədətoğlu***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ